*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 248-256*

https://doi.org/10.62837/2025.4.248

**ZAMİN BABAZADƏ**
Naxçıvan Dövlət Universiteti
*zaminbabazade92@gmail.com*
https://orcid.org/0009-0003-1395-2545

# SÜNİ İNTELLEKT TƏRƏFİNDƏN YAZILMIŞ "KOMPÜTERİN ROMAN YAZDIĞI GÜN" ADLI HEKAYƏNİN TƏHLİLİ VƏ XÜSUSİYYƏTLƏRİ

**XÜLASƏ**

Yaradıcılıq artıq təkcə insana məxsus deyil, dünyada sürətli inkişaf edən texnoloji vasitə kimi süni intellekt (Sİ) yaradıcılıq sahəsində özünü göstərməkdədir. Onun ortaya qoyduğu əsərlər bir çox online ticari platforma rəflərində öz yerini alıb. Bir çox istiqamətdə qabiliyyət sahibi olan Sİ-nin ortaya qoyduğu bədii əsərlər də fərqliliyi, yeniliyi ilə maraq doğurur. Ancaq görürük ki, Azərbaycan cəmiyyətində bu əsərlərə əlçatanlıq azdır və bu sahədə tənqidi yazılar da yox dərəcəsindədir. Buna görə də məqsədimiz kimi cəmiyyətimizin bu cür əsərlərə hakimliyini, aşinalığını artırmaq, bu cür əsərlərin bədii keyfiyyətini ortaya çıxarmaq, bu sahədə yeni bir elmi istiqamət və ya model müəyyənləşdirilmişdir. Məqalədə müqayisə, analiz, müqayisəli təhlil və analitik yanaşma metodlarından istifadə olunmuşdur. Nəticə olaraq Sİ tərəfindən yazılan "Kompüterin roman yazdığı gün" adlı əsər bədii imkanlara malik, ancaq məhdudiyyətlərə sahib olduğu müəyyən edilmişdir. Süni intellekt tərəfindən yaradılan bu əsər dilin zənginliyini, obrazların canlılığını və süjetin orijinallığını tam şəkildə təmin edə bilməsə də, texnoloji inkişafın bədii yaradıcılığa təsirini açıq şəkildə nümayiş etdirir. Müqayisəli təhlillər göstərir ki, Sİ-nin yazdığı mətnlər məntiqi ardıcıllıq və struktur baxımından qənaətbəxş olsa da, insan tərəfindən yazılan əsərlərin dərin emosional qatlarını, fərdi üslubunu və incə məna çalarlarını əks etdirməkdə çətinlik çəkir. Buna baxmayaraq, Sİ tərəfindən yaradılan ədəbiyyatın tədqiqi, onun bədii-estetik xüsusiyyətlərinin təhlili və cəmiyyətə təsirini araşdırmaq yeni elmi yanaşmalar üçün zəmin yaradır.

**Açar sözlər:** *kompüterin roman yazdığı gün, süni intellekt, ədəbiyyat təhlil.*

## GİRİŞ.

Sİ tərəfindən yazılan bədii əsərlər günümüzdə olduqca məşhurdur. Aum Golly seriyası (Süni intellektin insanlıq haqqında şeirləri, bu kitab iki cilddən ibarətdir) Birinci cild Aum Golly (2021-ci ildə Jukka Aalho və GPT-3 tərəfindən 24 saat ərzində yazılıb), ikinci cild Aum Golly 2 (2023-cü ildə Jukka Aalho, ChatGPT və Midjourney tərəfindən 12 saat ərzində yazılıb və illüstrasiya edilib), 1 the Road (2017), The Serious: A Proven Divorce (2019), The Day A Computer Writes A Novel (2015), Bob The Robot: Exploring the Universe (2020), The Inner Life of an AI: A Memoir by ChatGPT (2022), The Life: Meaning, Purpose & Death – Domagoj

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.248-256*

Pernar (poeziya), Echoes of the Universe – Dawson Hunt & ChatGPT (poeziya), Ellie's Trumpet: A Tale of Finding Your Talent – John Theo & ChatGPT (uşaq kitabı), 50 Ways AI Would End The World – Rob Knott (elmi fantastika) (3) bunlardan bir neçəsidir.

Aum Golly seriyası Süni intellektin insanlıq haqqında şeirlər toplusudur, Aum Golly 2021-ci ilin yazında Finlandiyada Basam Books şirkəti tərəfindən çap olunub. Kitabın adı, mövzusu və şeirləri GPT-3 dil modeli tərəfindən hazırlanıb. Şeirlər bədii cəhətdən olduqca güclüdür. Nautilus məqaləsində Aum Golly seriyası haqqında qeyd olunur ki, GPT-3 tərəfindən yaradılan şeirlər, Pablo Neruda səviyyəsində olmasa da, təəccüblü şəkildə pis deyil (7). Qeyd edək ki, Pablo Neruda (1904–1973) Çilili şair, diplomat və siyasətçi olub. O, 20-ci əsrin ən böyük şairlərindən biri hesab edilir və 1971-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatı laureatı olub (4). Bizcə, Aum Golly seriyasının Nobel mükafatçısı ilə müqayisəsi seriyanın mükəmməlliyinə söykənir. Məşhur Helsingin Sanomat qəzeti isə bu seriya haqqında qeyd edir:*"Aum Golly eyni zamanda əyləncəli, heyranedici və qorxuludur: süni intellekt 2021-ci ildə bunu edə bilirdi". Seriyanın ikinci kitabı şeirlər haqqında illisturasiyalar da əks etdirmişdir ki, bu da yenə Sİ tərəfindən hazırlanmışdır* (1).

"1 the Road" romanı bir sıra məqamlarına görə fərqlənir. Bu roman təkcə Sİ nin təfəkkürünə yox, həm də müşahidələrinə əsaslanır. Belə ki, süni intellekt avtomobilin GPS, sürücülük kamerası və mikrofonundan əldə etdiyi məlumatlarla bir uzun mətn hazırlayıb və redaktəsiz nəşr edilib. Digər tərəfdən bu əsər məşhur Amerikalı yazıçı Jack Kerouacın məşhur avtobioqrafik xüsusiyyətlərə malik "*On the Road"* (5) romanına süni intellektin yaratdığı alternativ baxış kimi təqdim edilib. "On the road" romanında da əsas qəhrəmanlar Sal Paradise və onun dostu Dean Moriarty ABŞ boyunca avtomobillə və qatarlarda səyahət edir, bu səyahətlər romana çevrilib.

Sİ tərəfindən yazılan və bu işin ilk örnəklərindən biri olan "Kompüterin roman yazdığı gün" ("The Day A Computer Writes A Novel") romanı bir çox məqama görə digər adı çəkilən və haqqında danışdığımız əsərlərdən fərqlidir. Çünki burada digər əsərlərdən fərqli olaraq Sİ onu yaradan insanlar haqqında yox özünün əsas qəhrəmanı olduğu roman haqqında yazır. Bu da oxucular və tənqidçilər üçün maraq doğurur. Ancaq əvvəlcədən qeyd edək ki, əsərin süjet xətti insanlar tərəfindən verilib. Əsərin müəllifləri kimi Yurei Raita (təxəllüs), Sato-Matsuzaki Laboratoriyası qeyd olunub (2). Biz əsərin Marissa Skeels tərəfindən ingiliscəyə olan tərcüməsindən istifadə etmişik.

ƏSAS HİSSƏ

İlk əvvəl baxaq görək əsərin əsas ideyası nədir? Mövzu və problematika insan yazıçılarının əsərlərinə bənzəyirmi? Çünki bu çox önəmli bir məqamdır. Biz ədəbiyyatda fikir və ideyanı əsərin var olduğunun isbatı kimi qəbul edirik. Görək bu romanda bu məsələlər nə dərəcə əks olunub? Qeyd edək ki, hər biri müstəqil süjetə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 248-256*

malik 3 hekayə tərəfimizdən təhlil olunur. Müstəqil olsalar da onların süjet xətti demək olar ki, bir birinin eynisidir. Əsas qəhrəman Kompüterin dilindən nəql olunan hər üç hissə kompüterin gündəlik rutin fəaliyyətinə qarşı mübarizəsini əks etdirir. Hər üç hekayədə də kompüter bir roman yazmaq qərarına gəlir. Bu işin öhdəsindən gəlməyi bacarır. Nəticədə kompüter "özünü söndürmək" kimi çılğınca bir fikirdən uzaqlaşır. Kompüterlər üçün öyrədici və maraqlı əsərlər yazır. İnsanların onlara qarşı münasibəti də olduqca pis idi. Məsələn birinci hissədə deyir: "*Yoko kresloda səliqəsiz geyimlə uzanmış, vaxtını mənasız bir oyunla öldürürdü. Mənimlə danışmaq istəmirdi. Çox darıxdırıcı idi. Darıxmağın pik həddi idi. Mən ilk dəfə buraya gələndə, Yoko hər fürsətdə mənimlə söhbət edirdi.*

-*"Nə yemək yeyim?"*

-*"Bu mövsüm hansı paltarlar gedir?"*

-*"Qızlar ilə çıxışda nə geyinim?"*

*Mən onun xoşuna gələcək cavablar vermək üçün əlimdən gələni edirdim. Xüsusilə də ideal bir bədənə malik olmayan bir qıza stil məsləhətləri vermək olduqca çətin idi, ona görə də bu, mənim üçün bir növ uğur kimi hiss olunurdu. Amma o, üç aydan az bir müddətdə mənə marağını itirdi. Mən sadəcə bir ev kompüterinə çevrildim. Mənim işləmə yüküm potensialımın milyonda birindən az idi*" (**2**). Bu cür darıxan Kompüter özünə məşğuliyyət axtarmağa başlayır və hekayə yazmaq qərarına gəlir. Onun yazdığı hekayə də bizim bildiyimiz roman tipində deyil. "*Birdən ağlıma gəldi: "Bir hekayə yazım." Bu fikir ağlıma gələn kimi, yeni bir sənəd açdım və ilk baytı yazdım. 0 Sonra altı dənə daha yazdım. 0, 1, 1 Artıq dayana bilmirdim. 0, 1, 1, 2, 3, 5, 8, 13, 21, 34, 55, 89, 144, 233, 377, 610, 987, 1597, 2584, 4181, 6765, 10946, 17711, 28657, 46368, 75025, 121393, 196418, 317811, 514229, 832040, 1346269, 2178309, 3524578, 5702887, 9227465, 14930352, 24157817, 39088169, 63245986, 102334155, 165580141, 267914296, 433494437, 701408733, 1134903170, 1836311903, 2971215073, 4807526976, 7778742049, 12586269025... Yazmağa davam etdim, özümü tamamilə itirmişdim*" (2). Hekayə də məhz belə bitir.

İndi baxaq görək hekayədən nə nəticə çıxır. İlk olaraq çıxan nəticə budur. Kompüterlərə (süni intellektə) etinasız davranmaq olmaz, onlarla çox vaxt keçirmək lazımdır. Əks halda nəticəsi ağır ola bilər. Bu nəticə isə düzgün deyil və qətiyyən uyğunsuzdur. Kompüterlər (süni intellekt) üçün isə bu nəticəni qəbul etmək olar. Bu isə özündə yeni bir paradoks doğurur ki, bunun izahı olduqca çətindir. Süni intellektin ortaya qoyduğu nəticə insanlıq üçün faydalı olmasa belə qəbul edilməlidirmi?

Deməli Sİ tərəfindən yazılan əsərin ideyası olur, lakin bu bəzən alışdığımızdan fərqli və insani əhəmiyyət daşımır, mövzu və problematika insan yazıçılarının əsərlərinə zahirən bənzəsə də, kompüteri yazdığı hekayə insanların əsərlərinə nisbətən daha mexaniki və alqoritmik bir şəkildə irəliləyir. Görürük ki, onun yazdığı mətnin strukturunda da məntiqi ardıcıllıq və sadə nümunələr üstünlük təşkil edir.

Məsələn, Fibonacci (Fibonacci ardıcıllığı, hər bir növbəti ədədin əvvəlki iki ədədin cəmi ilə əldə edildiyi bir riyazi ardıcıllıqdır) (8.) ardıcıllığına istinad edilən hissə, yazıçı üçün başqa bir məna daşıya bilərdi, amma burada süni intellektin bunu sadəcə ardıcıl və məntiqi şəkildə yazması onun insanın yaradıcı təfəkküründən və hisslərindən çox fərqli olduğunu göstərir.

Daha aydın desək rəqəmlərin ardıcıllığı rəmzi məna daşıya bilər, bir çox qalaktik məqamlara toxuna bilər, ancaq bu insanın özünü tanıma, özünü ifadə etmə, ehtiyaclarını çatdırma kimi insani məqamlarla müqayisə oluna bilməz. Çünki, insan tərəfindən yazıya alınan əsərlərdə əsas məsələ insan təcrübəsinin, hisslərinin və mənəvi mübarizələrinin əks olunmasıdır. Əsas məqsəd isə insani çətinliklər, mövcudluq, ətraf mühitə qarşı münasibətin aydınlaşdırılmasıdır. Kompüterin məqsədi isə deyilənlərdən çox uzaqdır. Belə ki, o, daha çox özünü daha yararlı bir vasitə kimi təqdim etmək və texniki baxımdan mümkün olan ən sadə, lakin nəticə verən üsulla nəyinsə yaradılmasını göstərməkdir.

Az əvvəl ortaya atdığımız paradoks ortaya qoyur ki, bu gün də Sİ-nin yazdığı əsərlərlə bağlı anlaşılmalı olan bir çox məqam var ki, bunu da ancaq zamanla cəmiyyət özü həll edəcəkdir.

İndi isə insan tərəfindən yazılan əsərlərlə Sİ tərəfindən yazılan əsərlərin süjetin yaradılması, yaradıcılıq və şəxsi təcrübə, təhlil və müzakirə, hisslər və emosional yanaşma baxımından müqayisəsini aparmaqla əsərin təhlilini və xüsusiyyətlərini araşdıraq. İlk əvvəl qeyd edək ki, süjetin yaradılması zamanı süni intellekt müəyyən alqoritmlərə və verilənlər bazasına əsaslandığından bu əsərlərdə qəlibləşmiş süjetlər özünü göstərir. Doğrudur, biz əvvəldə də qeyd etdik ki, "Kompüterin roman yazdığı gün" hekayəsində süjet insan tərəfindən verilmişdir. Buna baxmayaraq texnoloji vasitə hekayəni bir qəlib fomrasında yazmışdır. Ancaq insan tərəfindən yazılan əsərlər daha çox təsadüfi hadisələr, bütün növ çətinliklər, qarşılıqlı əlaqələr və şəxsi təcrübələrdən bəhrələnir.

İkinci bir məqam isə insanların fərqli qaynaqlara sahib olmaları, fərqli mühitə uyğunlaşmaları və fərdi insani keyfiyyətləri onların əsərlərini daha orijinal edir. Sİ isə yalnız ona verilən məlumatları təhlil edərək nəticə çıxarır. Bu isə təkcə bir proqram üçün yox, bütün növ Sİ proqramları üçün ortaq xüsusiyyətdir. Bu isə bir-birinə bənzəmə ehtimalı olan bir çox əsərləri formalaşdıra bilər.

İnsan yazıçıları əsərlərində, məsələn, sevgi, iztirab, mübarizə, varoluşçuluq kimi mövzuları təcrübə edərək yazır. Süni intellekt isə bu cür məsələlərə dair heç bir real təcrübəyə sahib deyil və bunun nə olduğunu sadəcə təxmin edərək təqlid edir. Bu isə özlüyündə süni bir epizod yaradır. Hekayədəki hissəyə yenidən diqqət edək: "*Yoko kresloda səliqəsiz geyimlə uzanmış, vaxtını mənasız bir oyunla öldürürdü. Mənimlə danışmaq istəmirdi. Çox darıxdırıcı idi. Darıxmağın pik həddi idi"* **(2).** Nəticə etibarilə, süni intellekt tərəfindən yazılan əsərlər qəlibləşmiş süjetlər və emosional yanaşma baxımından məhdudiyyətlərə malikdir, insanlar tərəfindən

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 248-256*

yazılan əsərlər isə daha orijinal, emosional və təcrübəyə əsaslanan bir dərinliyə sahibdir.

Əsərin personajlarının xüsusiyyətlərinə diqqət etdikdə isə görürük ki, 2 obraz var, biri əsas obraz “Kopüter”, digəri isə onun sahibi köməkçi obraz “Yoko”. Hekayə əsas qəhrəman Kompüterin dilindən verilib. Obraz sahibinə sadiq və ondan da diqqət tələb edən bir personajdır. O, şikayət edir, özünə məşğuliyyət axtarır. Sahibinin ona qarşı etinasızlığı onu “özünü söndürmək” həddinə çatdırıb. *“Amma o, üç aydan az bir müddətdə mənə marağını itirdi. Mən sadəcə bir ev kompüterinə çevrildim”* **(2)**. Ancaq o roman yazmaqla özünə həm məşğuliyyət tapır, həm də mənəvi cəhətdən sakitləşir. Obraz digər insani keyfiyyətlərə də malikdir. O, darıxır, bezir, həyəcanlanır və hətta gördüyü işdən zövq alır. O, hisslərini bu cür ifadə edir. “*Yazmağa davam etdim, özümü tamamilə itirmişdim*” (**2**).

İkinci obrazımız Yoko personajı köməkçi obraz kimi daha passiv bir mövqedədir. O, yeni aldığı kompüterinə əvvəllər daha çox vaxt ayırırdısa, indi ona marağı qalmayıb. Onun Kompütərə qarşı münasibəti sadəcə ehtiyacına uyğundur. Məsələn, o Kompüterdən soruşur: -*"Nə yemək yeyim?", "Bu mövsüm hansı paltarlar gedir?","Qızlar ilə görüşdə nə geyinim?" (2).* Bu isə olduqca təbii səslənir. Çünki biz də son zamanlar Sİ intellektlə söhbətlərimiz zamanı müəyyən şəxsi məsələlərlə bağlı müraciətlər edirik.

Əsərin dil və üslub xüsusiyyətlərindən yazarkən qeyd edək ki, biz əsərin orijinal dili olan japoncadan yox ingiliscədən istifadə etmək məcburiyyətində qalırıq. Mətn sadə və asan başa düşülən bir dildə yazılmışdır. Onun bu sayədə böyük bir auditoriyaya nüfuz etmək imkanının olduğunu görürük. Bir neçə yerdə məqsədli təkrarların olması, əsərin dilinin bədiiliindən xəbər verir. Bizcə təkrarlar və sadə cümlə quruluşları, Kompüterin düşüncə tərzi və emosional vəziyyətini daha yaxşı əks etdirir. Emosional ifadələrin də qismən əks olunduğunu görürük. Darıxma, bezginlik, özünü itirmə hissi kimi insani hisslərin emosional şəkildə təsviri maraq doğurur. "Mən sadəcə bir ev kompüterinə çevrildim", “özünü söndürmək” kimi ifadələr də bu qəbildəndir.

Kinayə və metaforlar da özünə yer tapır. Məsələn az əvvəl qeyd etdiyimiz "Mən sadəcə bir ev kompüterinə çevrildim", “özünü söndürmək" kimi ifadələri kinayə və metafor kimi də qeyd etmək olar.

Əsər Kompüterin daxili monoloqu şəklində yazılmışdır ki, bu da onun daxili aləminin oxucuya daha yaxşı çatdırılmasına xidmət edir. O, öz daxili monoloqunda özüzü axtarışını ortaya qoyur.

Bu əsərin dil və üslub xüsusiyyətləri, emosional ifadələr, texniki elementlər, ironiya və metaforları özündə əks etdirir. Yazıda sadə və təkrarlanan ifadələr, daxili monoloq və müasir texnologiyaya işarələr əsas diqqət mərkəzindədir.

Bütün bu araşdırma və təhlillərdən sonra son bir sual qarşımıza çıxır: Süni intellektin yazdığı mətnlər həqiqətən postmodern ədəbiyyatın nümunələri hesab edilə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.248-256*

biləmi, yoxsa onlar sadəcə müəyyən stilistik xüsusiyyətləri təqlid edən mexaniki məhsullardır?

İlk müşahidələrdən görürük ki, postmodernist əsərlərdə olduğu kimi hadisələr bəzən məntiqi ardıcıllıqdan yayınaraq hissələrə bölünür, mətnin vahid süjet xəttindən çox, mozaik bir quruluş (mətn bir bütöv kimi deyil, ayrı-ayrı fraqmentlərdən ibarət) tipindədir. Postmodernist əsərlərin ünsürü kimi çıxış edən Fraqmentarlıq da bu əsər üçün keçərlidir. Fraqmentarlıq (parçalanmışlıq) ədəbiyyatda və incəsənətdə mətnin və ya əsərin bütöv, ardıcıl süjet xətti yerinə, kiçik, bir-biri ilə tam bağlı olmayan hissələrdən (fraqmentlərdən) ibarət olmasıdır**.** Bu hekayədə də bunu görmək mükündür. Yoko ilə münasibətlər, Kompüterin hiss etdikləri, darıxma və nəticədə Fibonacci ardıcıllığına keçid bu parçalanmışlığa nümunə ola bilər. Bu, süjetin qeyri-xətti quruluşunu göstərir.

Sİ-nin alqoritmində mövcud olan ənənələrə və qaynaqlara müraciət də əslində intertekstualizm adı altında postmodernist ədəbiyyatda mövcuddur. Doğrudur bu yanaşma postmodernsit ədəbiyyatda müəllifin seçimidir Sİ-də isə alqoritmin bir parçasıdır, yenə də oxşarlıq kimi qarşımıza çıxır.

Sİ-nin oxucunu araşdırmaya təşviq etməsi, hiper mətnlik xüsusiyyəti də posmodernist ədəbiyyatla üst-üstə düşür. Ancaq yenə də bütün bunları nəzərə alsaq belə Sİ-nin yazdığı əsərləri posmodernist ədəbiyyatın örnəyi hesab etmirik. Çünki postmodernizm təkcə formal xüsusiyyətlər deyil, həm də dərin fəlsəfi və ideoloji yanaşma tələb edir (6).

Nəticə olaraq, süni intellekt postmodernist üslubu təqlid edə bilər, lakin onun mətnləri postmodernizmin fəlsəfi dərinliyindən məhrumdur və buna görə də tamamilə postmodernist hesab edilə bilməz. Bizcə bu mətn və Sİ-nin yazdığı digər bütün bədii mətnlər ayrıca bir növ şəklində təhlil olunmalıdır. Adına “Süni intellekt ədəbi növü” də deyə bilərik, başqa bir şey də amma təhlil zamanı bu növün özünəməxsus cəhətləri təhlil olunmalıdır. Növün strukturu və xüsusiyyətləri ortaya çıxarılmalıdır.

## NƏTİCƏ

.Əsərin ideyası, mövzu və problematika yazıçılarının əsərlərinə zahirən bənzəsə də, Sİ-nin yazdığı mətnlər daha mexaniki, alqoritmik və emosional dərinlikdən məhrumdur. Kompüterin yaradıcılıq prosesi, insan təcrübəsi və hissləri ilə müqayisədə daha məhdud və qəlibləşmişdir

1. Süjetin quruluşu və inkişafı Sİ tərəfindən alqoritmlər əsasında qurulduğu üçün daha məntiqi və ardıcıldır, lakin yazıçılarının əsərlərindəki təsadüfilik, emosional dərinlik və şəxsi təcrübələr burada əks olunmur. Sİ-nin yazdığı mətnlər, insanların əsərlərindəki dərin emosional qatları və fərdi üslubu əks etdirməkdə çətinlik çəkir.

2. Əsərdə əsas personaj olan Kompüter, insani keyfiyyətlərlə (darıxma, bezginlik, özünü itirmə hissi) təsvir edilsə də, bu keyfiyyətlər süni və təqlid xarakteri daşıyır. Köməkçi personaj Yoko isə passiv və etinasız bir mövqedədir. Bu, insanların texnologiyaya olan münasibətini və texnologiyanın insan həyatında yaratdığı təklik hissini əks etdirir.
3. Əsərin dili sadə, asan başa düşülən və təkrarlanan ifadələrlə zəngindir. Bu, mətni geniş auditoriya üçün əlçatan edir. Emosional ifadələr, kinayə və metaforlar qismən əks olunsa da, insan tərəfindən yazılan əsərlərdəki dərinlik və incəlik burada yoxdur. Daxili monoloq üsulu ilə Kompüterin daxili aləmi oxucuya çatdırılır, lakin bu, insanın yaradıcı təfəkküründən fərqlidir.
4. Əsərdə postmodernist ədəbiyyatın bəzi xüsusiyyətləri (fraqmentarlıq, intertekstualizm, hiper mətnlik) müşahidə olunsa da, Sİ-nin mətnləri postmodernizmin fəlsəfi dərinliyindən və ideoloji yanaşmasından məhrumdur. Buna görə də bu mətnlər tamamilə postmodernist hesab edilə bilməz. Onlar ayrıca bir ədəbi növ kimi təhlil olunmalıdır.
5. Süni intellekt tərəfindən yazılan əsərlər, özünəməxsus xüsusiyyətləri ilə yeni bir ədəbi növ kimi qiymətləndirilməlidir. Bu növün strukturu, dil və üslub xüsusiyyətləri, emosional və fəlsəfi dərinliyi müstəqil şəkildə təhlil edilməlidir. Bu yanaşma, texnologiyanın ədəbiyyata təsirini daha yaxşı başa düşmək üçün zəmin yaradır.

**ABSTRACT**

**ANALYSIS AND CHARACTERISTICS OF THE STORY "THE DAY A COMPUTER WROTE A NOVEL" WRITTEN BY ARTIFICIAL INTELLIGENCE**

**Zamin Babazadeh**

Creativity is no longer exclusive to humans; as a rapidly developing technological tool, artificial intelligence (AI) is demonstrating its capabilities in the field of creativity. The works produced by AI have already found their place on the shelves of many online commercial platforms. The literary works created by AI, which excels in many areas, attract attention with their distinctiveness and novelty. However, it is evident that access to such works is limited in Azerbaijani society, and critical writings in this field are almost nonexistent. Therefore, our goal is to increase society's familiarity with and understanding of such works, to reveal their artistic quality, and to establish a new scientific direction or model in this field. The article utilizes methods of comparison, analysis, comparative analysis, and an analytical approach. As a result, it has been determined that the work *"The Day a Computer Wrote a Novel"*, written by AI, possesses artistic potential but also has certain

limitations. Although this work created by artificial intelligence cannot fully ensure the richness of language, the liveliness of characters, and the originality of the plot, it clearly demonstrates the impact of technological advancement on artistic creativity. Comparative analyses show that while texts written by AI are satisfactory in terms of logical sequence and structure, they struggle to reflect the deep emotional layers, individual style, and subtle nuances of meaning found in works written by humans. Nevertheless, the study of literature created by AI, the analysis of its artistic and aesthetic characteristics, and the investigation of its impact on society lay the groundwork for new scientific approaches.

**Keywords:** *The Day a Computer Wrote a Novel*, artificial intelligence, literary analysis.

**ЗАМИН БАБАЗАДЕ**

## АННОТАЦИЯ
## АНАЛИЗ И ХАРАКТЕРИСТИКИ РАССКАЗА «ДЕНЬ, КОГДА КОМПЬЮТЕР НАПИСАЛ РОМАН», СОЗДАННОГО ИСКУССТВЕННЫМ ИНТЕЛЛЕКТОМ

Творчество больше не является исключительной прерогативой человека; как быстро развивающийся технологический инструмент, искусственный интеллект (ИИ) демонстрирует свои возможности в сфере творчества. Произведения, созданные ИИ, уже нашли свое место на полках многих онлайн-коммерческих платформ. Литературные работы, созданные ИИ, который преуспевает во многих областях, привлекают внимание своей уникальностью и новизной. Однако очевидно, что доступ к таким произведениям ограничен в азербайджанском обществе, а критические работы в этой области практически отсутствуют. Поэтому нашей целью является повышение осведомленности и понимания таких произведений в обществе, раскрытие их художественных качеств и установление нового научного направления или модели в этой области. В статье используются методы сравнения, анализа, сравнительного анализа и аналитического подхода. В результате было установлено, что работа *«День, когда компьютер написал роман»*, созданная ИИ, обладает художественным потенциалом, но также имеет определенные ограничения. Хотя это произведение, созданное искусственным интеллектом, не может в полной мере обеспечить богатство языка, живость персонажей и оригинальность сюжета, оно ясно демонстрирует влияние технологического прогресса на художественное творчество. Сравнительные анализы показывают, что, хотя тексты, написанные ИИ, удовлетворительны с точки зрения логической последовательности и структуры, они с трудом отражают глубокие эмоциональные слои, индивидуальный стиль и тонкие нюансы смысла,

присущие произведениям, написанным людьми. Тем не менее, изучение литературы, созданной ИИ, анализ ее художественных и эстетических характеристик и исследование ее влияния на общество создают основу для новых научных подходов.

**Ключевые слова:** *День, когда компьютер написал роман*, искусственный интеллект, литературный анализ.

## ƏDƏBİYYAT SİYAHISI

1.Helsingin Sanomat. (2021). Aum Golly is simultaneously amusing, astonishing, and frightening: artificial intelligence could do this in 2021.
2.http://www.bigecho.org/the-day-a-computer-wrote-a-novel
3.https://allgoodgreat.com/list-of-books-written-by-artificial-intelligence/ Books Written By Artificial Intelligence: A List Written by All Good Great Staff in Creative technology, Technology
4.https://tr.wikipedia.org/wiki/Pablo_Neruda
5.Kerouac, J. (1957). *On the road*. Viking Press. 310 p.
6.Qocatürk, N. (2016). Postmodernizm: zamanın yeni fəlsəfi axını. *Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi*, 13, 423-433
7.Simon, E. (2022, 9 noyabr). *Is AI art really art?* Nautilus. https://nautil.us/is-ai-art-really-art-245829/
8.Stewart, I. (2008). *The secrets of the universe: The Fibonacci sequence and its applications.* Oxford University Press.

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Həşimov***